

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

23 aprel 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 15 (3778)


# Dostluqdan strateji tərəfdaşlığa



## Azərbaycan-Latviya əlaqələri inkişaf edir

**Azərbaycan Prezidenti İlham Əliyev :** *"Aramızda çox yaxşı siyasi əlaqələr mövcuddur. Bu gün onlar bir daha təsdiqləndi".*

**Latviya Prezidenti Edqars Rinkeviçs :** *"Latviya Azərbaycanı strateji tərəfdaş və dost hesab edir".*

Aprelin 22-də Azərbaycana rəsmi səfərə gələn Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Latviya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Latviya Prezidenti Edqars Rinkeviçsi qarşılayıb.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Edqars Rinkeviçsə, Latviya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Həmin gün prezidentlərin təkbətək, sonra geniş tərkibdə görüşü olub. Həmçinin dövlət başçılarının iştirakı ilə Azərbaycanla Latviya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi keçirib.

Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul ediblər.

Dövlət başçılarının iştirakı ilə keçirilən geniş tərkibli görüşdə Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, iki ölkə arasında çox yaxşı siyasi əlaqələr mövcuddur: "Bu gün onlar bir daha təsdiqləndi. Ticarəti və qarşılıqlı sərmayələri artırmaq, energetika, daşımalar, rəqəmsallaşma və Azərbaycanda fəal şəkildə təşviq etdiyimiz bütün sahələrə aid olan məsələləri həll etmək məqsədilə əməkdaşlığımıza dair praktiki məsələləri nəzərdən keçirməliyik".

Sonra Latviya Prezidenti Edqars Rinkeviçs da qeyd edib ki, təkbətək görüşdə Yaxın Şərqdə və Avropada siyasi hadisələrə, regional təhlükəsizliyə aid bir sıra məsələləri müzakirə ediliblər: "Bir daha vurğulamaq istədiyim məqam odur ki, Latviya Azərbaycanı strateji tərəfdaş və dost hesab edir".



### Daxili işlər nazirləri sənədləri mübadilə ediblər

Qeyd edək ki, ölkə başçılarının iştirak etdiyi mərasimdə daxili işlər orqanları arasında əməkdaşlığı nəzərdə tutan saziş də yer alıb.

Ümumilikdə imzalanmış sənədlərdən birini -"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın daxili işlər naziri Vilayət Eyvazov və Latviyanın daxili işlər üzrə dövlət naziri Dimitrijs Trofimovs mübadilə ediblər.

# Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib

## Kompleks tədbirlər nəticəsində kriminogen durum nəzarətdə saxlanılıb

Aprelin 21-i Daxili İşlər Nazirliyində onlayn formatda Kollegiya iclası keçirilib.

Mülkiyyət əleyhinə olan cinayətlərin qarşısının alınması və açılması, mühafizə-siqnalizasiya vasitələrinin tətbiqi sahəsində həyata keçirilən tədbirlər və bayır xidmətinin təşkilinin vəziyyətinə həsr olunmuş iclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2026-cı ilin birinci rübündə də məqsədyönlü şəkildə davam etdirilib.

*(Ardı 2-ci səhifədə)*

# Gənc kadrların yüksəlişi

## Onlar polisin seçilən əməkdaşlarıdır

**Daxili İşlər Nazirliyinin müvafiq komissiyası tərəfindən təşkil olunan imtahanların yekunlarına əsasən ən yaxşı gənc əməkdaşlar bəlli olub. Bununla da onların xidmət yolunda yeni bir mərhələ başlayıb.**

Cinayətkarlıqla mübarizə daim dəyişən, dövrün çağırışlarına uyğunlaşan proses olduğuna görə əldə edilən təcrübənin gənc nəslə ötürülməsi xüsusi əhəmiyyət daşıyır. Gənclərin potensialının üzə çıxarılması və peşəkarlıq səviyyəsinin artırılması xidmətin davamlılığını yaratmaqla bu zəncirin qırılmamasını təmin edir. Eyni zamanda yeni əməkdaşların xidməti cinayətkarlıqla mübarizəyə əlavə dinamika gətirir. Bu mənada uzun illərdir keçirilən "Ən yaxşı gənc əməkdaş" müsabiqəsi gənc kadrlara özlərini doğrultmaq imkanı yaradır.

*(Ardı 3-cü səhifədə)*

# Dövlət başçıları telefonla danışıblar

## Yeni birgə layihələrlə bağlı planlar müzakirə edilib

Aprelin 19-da Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Azərbaycan və Serbiya prezidentləri ikitərəfli əlaqələrin daha da gücləndirilməsi barədə fikir mübadiləsi aparıb, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, enerji, investisiyalar və hər iki dövlət üçün strateji əhəmiyyət kəsb edən yeni birgə layihələrin daha da inkişaf etdirilməsi ilə bağlı planları müzakirə ediblər.

# Prezident Fərmana dəyişiklik edib

## Əməliyyat-axtarış tədbirlərində səlahiyyət bölgüsü yenilənib

Prezident İlham Əliyevin aprelin 20-də imzaladığı Fərmanla əməliyyat-axtarış tədbirləri ilə bağlı Fərmana dəyişiklik edilib.

Fərmana əsasən, "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının I hissəsinin beşinci abzasına "Xidməti" sözündən sonra "və Dövlət Gömrük Komitəsi" sözləri əlavə olunub və həmin abzasda "keçirir" sözü "keçirirlər" sözü ilə əvəz edilib.

# Prezident Forumda iştirak edib

## Dövlət başçısı ölkə rəhbərləri ilə görüşlər keçirib

Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Qeyd edək ki, Antalya Diplomatiya Forumu çərçivəsində Prezident İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, Moldovanın Prezidenti Maya Sandu, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürman və Suriyanın keçid dövrünün Prezidenti Əhməd Əl Şaraa ilə görüşüb.

# Sülh naminə...

## Birinci xanım panel iclasda iştirak edib

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva aprelin 18-də Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində "Fələstində sülh naminə birləşərək: Təhsil sisteminin məhv edilməsi ilə mübarizə və gələcəyin qorunması" adlı panel iclasda iştirak ediblər. Paneldə müharibədən zərər görən uşaqlar üçün təhsil məsələləri müzakirə olunub.


**Diplomatların keşiyində** 2



**Yeniyetmələr məlumatlandırılır** 3



**Bunları etmək bəzi ölkələrdə qadağandır** 4



**Banqkokda tarixi qələbə** 4



# Respublika Xəbərləri

### Kürdəmir stansiyası açılıb

Azərbaycan Dəmir Yolları Kürdəmir dəmiryol stansiyasını yenidən quraraq sərnişinlərin istifadəsinə verib. Stansiya Bakı–Qazax, Bakı–Balakən, Bakı–Ağdam və Bakı–Ağstafa marşrutları üzrə qatarlara xidmət göstərəcək. Yenilənmiş stansiyada gözləmə və VİP zalları, həmçinin parkinq mövcuddur. Bakı–Kürdəmir istiqamətində ən aşağı bilet qiyməti 11,10 manatdır və qatar 203 km məsafəni 2 saat 11 dəqiqəyə qət edir.

### Bibiheybət yolu bərpa edilib

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi intensiv yağıntıların fəsad törətdiyi Bibiheybət yolunda bərpa işlərini başa çatdırıb. Ərazidə yolun dayanıqlılığını təmin etmək üçün yeni torpaq yatağı və yol əsası qurulub, müasir standartlara uyğun asfalt örtüyü döşənib, həmçinin suyun kənarlaşdırılması üçün drenaj sistemi yaradılıb. Görülən işlər nəticəsində yol yenidən istifadəyə verilib.

### Pensiyalar proaktiv təyin olunur

Dövlət Sosial Müdafiə Fondu bu ilin yanvar-mart aylarında 10 102 nəfərə proaktiv qaydada yaşa görə əmək pensiyası təyin edib. Proaktiv mexanizm sayəsində vətəndaşlar əlavə müraciət etmədən pensiya hüquqları avtomatik şəkildə müəyyənləşdirilərək təyinat aparılır. Bu yanaşma xidmətlərin daha operativ və şəffaf həyata keçirilməsinə imkan yaradır. Təyinat alanların 60,96 faizini kişilər, 39,04 faizini isə qadınlar təşkil ediblər.

### Ağdama köç davam edir

İlham Əliyevin tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində Ağdam şəhərinə növbəti köç həyata keçirilib. Bu mərhələdə respublikanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış 92 ailə - 332 nəfər doğma yurduna qayıdıb.

### Arayış tələbi ləğv edilib

Ailə başçısını itirməyə görə sosial ödəniş və əyani təhsil alan gənclərdən hər il arayış təqdim olunması tələb edilməyəcək. Yeni qaydaya əsasən, ödənişlər 23 yaşadək davam edir və proses Dövlət Sosial Müdafiə Fondu ilə DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin tətbiq etdiyi rəqəmsal həll sayəsində tam avtomatlaşdırılıb. Tələbələrin təhsil statusu Dövlət İmtahan Mərkəzinin bazasından elektron qaydada əldə olunur.

### Qayıdış festivalı keçiriləcək

Naxçıvan Muxtar Respublikasında üçüncü “Qərbi Azərbaycana qayıdış” festival-konqresi iyunun 18-19-da Ordubad şəhərində təşkil olunacaq. Tədbir Prezidentin Səlahiyyətli Nümayəndəliyi, Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçiriləcək. Konqres hissəsində alim və tədqiqatçılar Qərbi Azərbaycanla bağlı tarixi irs və qayıdış perspektivlərini müzakirə edəcəklər.

### Dilənçiliyə görə cəza

Dilənçiliklə məşğul olmağa görə cəzalar müəyyən edilir. Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsində dəyişiklik layihəsinə əsasən, yetkinlik yaşına çatmayan şəxsin dilənçiliyə cəlb edilməsinə görə - iki yüz manatdan beş yüz manatadək məbləğdə cərimə ediləcək və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq olunacaq. Qanun layihəsi müzakirələrdən sonra səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

### Sosial sahəyə daha çox pul xərclənib

Bu ilin I rübündə Azərbaycanda dövlət büdcə xərclərinin 54,1 faizini və yaxud 4 milyard 227,8 milyon manatını sosialyönlü xərclər təşkil edib. Qeyd edək ki, buraya büdcə xərclərinin əməyin ödənişi fondu, qida məhsullarının alınması, təqaüd və sosial müavinətlər, dərman, sarğı ləvazimatları və materialların alınması, icbari tibbi sığorta üzrə xərclər daxildir.

### "Son Zəng" nə vaxt olacaq?

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) müvafiq təlimatına əsasən, bütün dövlət ümumtəhsil müəssisələrində ənənəvi "Son Zəng" tədbiri iyunun 13-də keçiriləcək. Məlumata görə, "Son Zəng" tədbirinin keçirilməsi qaydalarının tənzimləyən təlimatlar məktəblərə göndərilib, təlimatdan irəli gələn məsələlərlə bağlı şagird, müəllim və valideynlərlə müvafiq söhbətlər aparılır.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

## Kompleks tədbirlər nəticəsində kriminogen durum nəzarətdə saxlanılıb



*(Əvvəli 1-ci səhifədə)*

Cinayətlərin qarşısının alınması, açılması, istintaqı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən kompleks tədbirlər müsbət nəticələr verib, kriminogen durum nəzarətdə saxlanılıb.

Qeyd olunub ki, cari ilin 3 ayında əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə qeydə alınmış 7738 cinayətin 85,9 faizinin açılması təmin olunub.

### Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin açılması tam təmin olunub

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 90,1 faizi açılıb. 2025-ci ilin eyni dövrü ilə müqayisədə cinayətlərin dinamikasında 4,9 faiz azalma baş verib. Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların açılması yaxşılaşıb, qəsdən adam öldürmə və ona cəhdlərin, cibgirliklərin, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların açılması tam təmin olunub. Qeyri-leqal dövriyyədən 2 ton 310 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 648 kiloqram çox narkotik vasitə çıxarılıb.

Ağır, xüsusilə ağır və qrup halında cinayətlərin, şəxsiyyət əleyhinə olanların, adam öldürməyə cəhdlərin, mülkiyyət əleyhinə olanların, onlardan oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların, informasiya texnologiyalarından istifadə edilməklə törədilənlərin, əvvəllər məhkum olunmuşlar, yetkinlik yaşına çatmayanlar tərəfindən və ailə münaqişəsi zəminində törədilən cinayətlərin sayı azalıb, eyni zamanda yol-nəqliyyat hadisələrinin sayı 15 fakt, qəzalarda ölənlərin sayı 9 nəfər, xəsarət alanların sayı 44 nəfər az olub.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı Nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

İclasa yekun vuran daxili işlər naziri V.Eyvazov gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, bəzi ərazi orqanlarının fəaliyyətində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək onların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini, xüsusən yetkinlik yaşına çatmayanların hüquqazidd əməllərdən çəkindirilməsi üçün profilaktik işin gücləndirilməsini, onların sosial şəbəkələrin zərərli təsirlərindən qorunması məqsədilə aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə birgə maarifləndirmə tədbirlərinin daha məqsədyönlü davam etdirilməsini tələb edib. Eyni zamanda, əməliyyat-xidmət fəaliyyətinin bir sıra vacib istiqamətləri və aktual məsələləri üzrə konkret tapşırıq və tövsiyələrini verib.

# Uşaqların qorunması əsas vəzifədir

## Uşaq hüquqları ilə bağlı qanunda nələr var?

"Uşaq hüquqları haqqında" yeni hazırlanmış qanun Prezident İlham Əliyevin imzalaması ilə qüvvəyə minib. Sənəddə uşaq hüquqları 8 fəsil və 63 maddə ilə təsbit olunub.

İlk növbədə onu qeyd edək ki, uşaq hüquqları haqqında yeni qanun uşağın təhlükəsizliyini, ləyaqətini və rifahını dövlət siyasətinin prioritetinə çevirir. Uşağa qarşı zorakılıq anlayışının geniş formada təsbit olunması xüsusi diqqət çəkir. Fiziki və psixoloji təzyiq, cinsi zorakılıq, etinasız münasibət, təhlükədə qoyma, istismar, davamlı aqressiv davranış, hətta internet üzərindən törədilən zərərli hərəkətlər də qanunda açıq şəkildə zorakılıq kimi tanınır. Bu da o deməkdir ki, uşağa qarşı təhlükəni rəqəmsal məkanda da gördükdə qanun çərçivəsində ölçü götürülməlidir.

Yeni hüquqi yanaşmanın ən vacib istiqamətlərindən biri zorakılıq əlamətlərinin aşkarlanması və bu barədə dərhal məlumat verilməsi ilə bağlıdır. Müəllim, həkim, sosial işçi və uşaqlarla daimi təmasda olan digər şəxslər belə halları gizlətməməli, aidiyyəti orqanlara çatdırmalıdır. Uşağın davranışındakı qorxu, travma, susqunluq, bədən xəsarətləri və ya digər risk siqnalları polis əməkdaşı üçün də mümkün hüquq pozuntusunun xəbərdarlığı sayılır.

Uşağın tutulması, həbs edilməsi və azadlıqdan məhrum olunması, erkən evlilik, uşaqların cinayətə, dilənçiliyə, avaralığa, insan alverinə, pornoqrafiya dövriyyəsinə və digər istismar formalarına cəlb edilməsi kimi həssas məsələlər qanunlar çərçivəsində həll edilməsi tələbi dəyişməz olaraq qalır.

Mühüm məqamlardan biri isə ondan ibarətdir ki, uşağa yalnız müdafiə obyekti kimi baxılmır, həm də hüquq subyekti kimi qəbul edilir. O, bilavasitə və ya nümayəndəsi vasitəsilə müraciət edə, şikayət edə, müdafiə tələb edə bilər. Bu kimi hallarda uşaqlarla işləyən əməkdaşların yalnız qanunu bilməsi kifayət etməyəcək, bununla yanaşı uşaq psixologiyasının öyrənilməsi də nəzərə alınmalıdır.

Bütün bunların fonunda aydın görünür ki, yeni qanun polisə də uşaqlarla bağlı fəaliyyətə geniş yer ayırır. Əsas vəzifə uşağı vaxtında görmək, təhlükəni düzgün tanımaq, onu zorakılıqdan, istismardan, laqeydlikdən və hüquqsuzluqdan qorumaqdır. Əslində, dövlətin uşaq siyasətinin real gücü də elə bununla ölçülür.

# Diplomatların keşiyində

## Əlahiddə Polis Taboru öz missiyasını peşəkarlıqla yerinə yetirir

Beynəlxalq qanunlar diplomatik nümayəndəliklərə, xüsusən səfirliklərin yerləşdiyi ölkədə bir növ suverenlik hüququ verir və bu bilinən faktdır. Bu diplomatik toxunulmazlıq çətiridir. Onların fəaliyyət göstərdikləri bina və ərazi belə təmsil etdikləri dövlətə məxsus sayılır.

Diplomatların təhlükəsizliyini təmin etmək hər bir dövlətin öhdəliyidir və elçiliklərin sərhədlərindən, yəni kandarından başlayaraq yerli güc strukturlarına həvalə edilir. Ölkəmizdə bu işə birbaşa cavabdeh olan Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Diplomatik Nümayəndəliklərin mühafizəsi üzrə Əlahiddə Polis Taboru bu baxımdan hər zaman öz missiyasını peşəkarlıqla yerinə yetirib. Adımızın beynəlxalq qalmaqallarda çəkilməsinə və dövlətlərarası münasibətlərə xələl gətirilməsinə imkan verməyib.

Aydın məsələdir ki, xarici təssisatların təhlükəsizliyinə dövlət səviyyəsində verilən təminat daxili işlər orqanları və digər güc strukturlarının indiyədək uğurla koordinasiya etdikləri fəaliyyətlər sayəsində ərsəyə gəlib. Taborun əməkdaşları isə öz xidmətləri ilə bu güvənli mühiti bir qədər də gücləndirirlər. Onların xidməti beynəlxalq əhəmiyyətli missiya kimi qiymətləndirilir.



### Taborun tarixi sınağı

Polis Taboru özünün ən ciddi sınaq dövrünü İkinci Qarabağ müharibəsi günlərində keçdi. Vətən müharibəsində ölkəmizin haqlı davasını dəstəkləyən dost və müttəfiq dövlətlərin nümayəndəliklərinə mümkün erməni terroruna qarşı yüksək təhlükəsizlik tədbirləri görülmüşdü. Tarixdən məlumdur ki, ermənilər Türkiyə nümayəndəliklərinə qarşı silsilə terror aktları həyata keçiriblər. Buna görə 44 gün ərzində, eləcə də antiterror tədbirləri günlərində bu hadisələr barədə Taborun şəxsi heyətinə ətraflı məlumat verilmiş, terror və təxribat ehtimalına qarşı ayıq-sayıq xidmət təşkil olunmuşdu. Müharibə başladığı gündən bitənə qədər gücləndirilmiş rejimdə xidmət edən əməkdaşlar üçün hər bir post əsl səngərə çevrilmişdi.

Vətən müharibəsindən sonra isə DİN rəhbərliyinin xüsusi tapşırığı ilə daxili işlər orqanlarında xidmətə qəbul edilən müharibə iştirakçılarından bir qrupu məhz Taborun sıralarına keçmişdi.

### Risk və təhdidlər öncədən hesablanır

Hazırkı mürəkkəb və təlatümlü beynəlxalq vəziyyətdə ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin təhlükəsizliyinin təmin edilməsi xüsusilə diqqət mərkəzində saxlanılır. Səhər təlimatında postlarda xidmətin təşkili məsələlərilə yanaşı dünyada baş verən siyasi dəyişikliklər, hadisələr və terror aktları barədə şəxsi heyət məlumatlandırılır. Harada nə baş verirsə, ətraflı izah edilir və arzuolunmaz hadisələrlə üzləşməmək üçün əlavə tədbirlər nəzərdən keçirilir.

Qabaqlayıcı tədbir kimi diplomatik korpusların yerləşdikləri ərazilərdə stasionar postlarda polis əməkdaşları xidmət etməklə bərabər həmin ərazilər “Təhlükəsiz şəhər” sisteminə qoşulmuş kameralar vasitəsi ilə fasiləsiz müşahidə altında saxlanılır. Yerlərdə polis idarələri ilə təşkil edilən qarşılıqlı xidmət ərazini daimi nəzarətə götürməyə və lazım gələndə təxirəsalınmadan müvafiq tədbirlərin görülməsinə imkan verir. Əməkdaşların peşəkarlıq keyfiyyətlərini artırmaq üçün peşə və fiziki hazırlıq məşğələlərindən əlavə səfirliklərlə birlikdə keçirilən təlimlərdə diplomatik nümayəndəliklərin etibarlı mühafizə edilməsinin yeni üsulları öyrənilir. Dünyanın müxtəlif ölkələrində səfirliklərə edilən hücumların və baş vermiş insidentlərin araşdırıldığı bu təlimlər xidməti daha da təkmilləşdirir.

*R.Mehtiyev*

# Gənc kadrların yüksəlişi

## Onlar polisin seçilən əməkdaşlarıdır

*(Əvvəli 1-ci səhifədə)*

**Xidməti fəaliyyətində uğurlu nəticələri ilə fərqlənən, nəzəri hazırlığı ilə seçilən, qanunvericiliyi praktikada dəqiq tətbiq edən və müasir iş üsullarını mənimsəyən əməkdaşları üzə çıxarmaq məqsədilə hər il keçirilən müsabiqənin, əslində, böyük strateji hədəfləri də var.**

İlk növbədə qeyd etməliyik ki, sınaqdan keçənlər cinayətkarlıqla mübarizənin ön xəttində dayanan əməkdaşlardır. Gənc müstəntiqlər, təhqiqatçılar, post-patrul xidmətinin tağım komandirləri, sahə üzrə çalışan əməkdaşlar və əməliyyat müvəkkillərinin hazırlıq səviyyəsi ümumi təhlükəsizlik mühitinin keyfiyyətini müəyyən edir. Onların hazırlıq səviyyəsi "cinayətkarlıqla mübarizənin müqəddəratını həll edir" desək, yəqin ki, bununla hamı razılaşar.

Digər tərəfdən, müsabiqədə uğur qazanan əməkdaşların vəzifədə irəli çəkilmə perspektivi var ki, bu da gələcəkdə daha peşəkar kadrların, daha hazırlıqlı əməkdaşların qərarvermə mexanizminə rəhbərlik etmələri deməkdir. Yəni onların bilik və bacarıqlarına əsaslanaraq cinayətkarlıqla mübarizənin gələcəkdə hansı qüvvə hesabına aparılacağı barədə indidən ümumi fikir yürütmək mümkündür.

Hazırkı məqamda isə müsabiqənin qalibləri həm də mükafatlandırılır. Elə son müsabiqənin nəticəsinə görə daxili işlər nazirinin əmri ilə müvafiq yerlərə uyğun olaraq 24 əməkdaş əməkhaqqının bir neçə misli məbləğində pul ilə mükafatlandırılıb.

Üçüncü vacib məsələ ən yaxşıların müəyyən edilməsinin yerlərdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə təsiri ilə bağlıdır. Şəffaflıq prinsipləri əsasında əməkdaşın öz biliyini, bacarığını nümayiş etdirməsi, buna adekvat olaraq qarşılığını görməsi kollektivdə sağlam rəqabət üçün münbit zəmin yaradır. Bir qədər sadə dillə ifadə etsək, yaradılan bərabər şərait və şərtlər ən yaxşılara bənzəmək istəyənlərə geniş imkanlar açır, bu da şəxsi heyət arasında xidmətə münasibəti stimullaşdırır.

Bu isə dolayısı ilə vətəndaş məmnunluğunu artıran əsas faktordur. Çünki polislər yalnız cinayətkarlarla, qanunu pozanlarla "işləmirlər", onlar həm də hüquq və azadlıqların müdafiəsinə ehtiyac duyan vətəndaşların müraciət etdikləri ilk səlahiyyətli şəxslərdir. Deməli, yüksək nəzəri biliklərə və normativ hüquqi aktları təcrübədə düzgün tətbiq etmə bacarığına sahib olan qanun keşikçilərinin davamlı olaraq artması nəticə etibarilə hər rayonda, hər kənddə sakinlərin polisin xidmətindən məmnuniyyətini artırır.

*Rəşad Mehtiyev*

# Yeniyetmələr məlumatlandırılır

## Regionlarda maarifləndirici görüşlər davam etdirilir



Quba, Salyan və Zərdab rayonlarında polisin təşəbbüsü ilə təhsil müəssisələrində maarifləndirici görüşlər keçirilib. Tədbirlərin əsas mövzusu narkomaniya və erkən nikah kimi cəmiyyət üçün risk yaradan hallara qarşı mübarizə aparılması olub.

İlk olaraq Quba rayonunda Qırmızı qəsəbə, Zizik, Vladimirovka və Alekseyevka kənd tam orta məktəblərində silsilə görüşlər təşkil edilib. Şagirdlərə narkotiklərin insan sağlamlığına və sosial mühitə vurduğu ziyanlar izah olunub, erkən nikahın hüquqi və sosial nəticələri barədə məlumatlar verilib. Görüşlər zamanı Polis Akademiyasında təhsil imkanlarından da danışılıb, suallar interaktiv şəkildə cavablandırılıb.

Salyan rayonunda Ərəbqardaşbəyli kənd orta məktəbi və S.Cəbrayılov adına peşə liseyində də "Narkomaniyaya yox deyək" mövzusunda tədbirlər keçirilib. Çıxış edənlər narkomaniyanın qarşısının alınmasında ailə, məktəb və cəmiyyətin birgə fəaliyyətinin vacibliyini vurğulayıblar. Sonda isə mövzu ilə bağlı maarifləndirici film nümayiş olunub.

Zərdab rayonunda isə Çallı və İsaqbağı kənd məktəblərində təşkil olunan görüşlərdə narkomaniyanın və erkən nikahların gənclərin fiziki və psixoloji inkişafına təsiri geniş şəkildə izah edilib. Tədbirlər çərçivəsində şagirdlərin sualları cavablandırılıb və mövzuya dair film təqdim edilib.

Bu tədbirlər göstərir ki, gənclərin düzgün istiqamətdə formalaşması üçün maarifləndirmə əsas vasitələrdən biridir. Erkən yaşlardan riskli vərdişlər barədə məlumatlandırılan yeniyetmələr daha şüurlu seçim edir, cəmiyyətə faydalı fərd kimi yetişir. Yəni hazırda polisin, təhsil müəssisələrinin və ailə institutunun birgə fəaliyyəti sağlam gələcəyin formalaşmasında həlledici rol oynayır.

# Təhlükə anında vətəndaşın yanındayıq

## Böhran vəziyyətlərində polisin fəaliyyəti insan sağlamlığı və ictimai asayişin qorunmasında həlledicidir

Adətən fövqəladə hallar zamanı yaranan gərginlik ictimai asayişin qorunmasını çətinləşdirir. İnsanlar təşvişə düşə, bəzi hallarda isə bundan sui-istifadə edən şəxslər ortaya çıxa bilər. Məhz buna görə belə vəziyyətlərdə daxili işlər orqanlarının, bir sözlə, polisin fəaliyyəti ön plana çıxır.

Bu zaman Daxili İşlər Nazirliyinin əməkdaşlarının üzərinə böyük məsuliyyət düşür. Onlar həm operativ, həm də düşünülmüş şəkildə hərəkət etməyə, çətin şəraitdə düzgün qərarlar qəbul etməyə məhkumdurlar. Peşəkarlıqla yanaşı, psixoloji dözümlülük də burada mühüm rol oynayır. Çünki belə vəziyyətlərdə verilən hər bir qərar birbaşa insan həyatına təsir edir.

### Böhran hallarına ən hazırlıqlı qurumlardan biri polisdir

Fövqəladə hallarda daxili işlər orqanlarının fəaliyyəti müəyyən sistem üzrə qurulur. İlk olaraq polis qüvvə və vasitələrin hazırlıq səviyyəsini yoxlayır, hadisənin miqyası digər dövlət qurumları ilə birgə müəyyən edilir və ilkin planlaşdırma aparılır. Bu mərhələnin xüsusi həlledici əhəmiyyəti var, çünki sonrakı fəaliyyətin uğuru məhz burada qəbul edilən qərarlardan asılıdır.

İkinci mərhələdə bütün sistem tam şəkildə işə düşür. Əlavə əməliyyat qrupları yaradılır, müxtəlif xidmətlərin fəaliyyəti əlaqələndirilir və hadisə yerində fəaliyyət göstərən qüvvələrə koordinasiyalı şəkildə xidmət təşkil olunur. Məlumatlar toplanır, təhlil edilir və vəziyyətə uyğun qərarlar qəbul edilir. Rabitə sistemi qurularaq bölmələr arasında əlaqə təmin olunur.

Üçüncü mərhələdə əsas diqqət vəziyyətin sabitləşdirilməsinə yönəlir. İnsanların normal həyatına qayıtması üçün şərait yaradılır, fəsadlar aradan qaldırılır və görülən işlər təhlil olunur. Eyni zamanda gələcək üçün nəticələr çıxarılır.

Belə vəziyyətlərdə cinayətkar fəaliyyətinin artması ehtimalı da mövcuddur. Buna görə ictimai asayişin qorunması daim diqqətdə saxlanılır. Paralel olaraq zərərçəkən şəxslərə operativ yardım göstərilməsi, onların təhlükəsiz ərazilərə təxliyəsi və tibb məntəqələrinə çatdırılması əsas vəzifələrdəndir.

Hadisə baş verən zaman qüvvə və vasitələr qısa müddətdə toplanılır, idarəetmə məntəqələri yaradılır. Daxili işlər orqanları bu zaman gücləndirilmiş iş rejiminə keçir. Əməkdaşlar dərhal məlumatlandırılır, yollar nəzarətə götürülür, təhlükəli və strateji ərazilərdə xidmət gücləndirilir.

Əgər hadisə təhlükəli maddələrlə bağlıdırsa, əlavə təhlükəsizlik tədbirləri görülür, xüsusi postlar qurulur və ərazi ciddi nəzarətə götürülür. Zərurət olduqda əhalinin təxliyəsi həyata keçirilir. Post-patrul xidməti əməkdaşları adətən hadisə yerinə ilk çatanlardan olur. Onlar vəziyyəti qiymətləndirir, insanları təhlükəli ərazilərdən uzaqlaşdırır, ilkin yardım göstərir və ictimai asayişi təmin edirlər.

Epidemiya və karantin şəraitində isə giriş-çıxış nəzarətdə saxlanılır və xüsusi rejimin icrası təmin olunur.

### Həyat xilas edən müdaxilələr

Bu gün baş verən müxtəlif fövqəladə hadisələr polis əməkdaşlarının operativ müdaxiləsinin nə qədər vacib olduğunu bir daha göstərir. Qlobal pandemiyanın (Covid 19) aktiv fazasında, Azərbaycan polisinin, Daxili Qoşunların hərbi qulluqçuları ilə birgə təşkil edilmiş fəaliyyəti bunun ən bariz örnəyi oldu. Vaxtında və düzgün addımlar sayəsində çox sayda insanın həyatı xilas olundu, hadisələrin daha ağır nəticələrə gətirib çıxmasının qarşısı alındı.

### İnsan həyatı polis üçün hər zaman prioritetdir

Bəzən bu əməyin böyük hissəsi görünmür, lakin cəmiyyətin təhlükəsizliyi məhz belə səssiz fəaliyyət nəticəsində qurulur. Son dövrlərdə baş verən hadisələr də onu göstərir ki, polis əməkdaşlarının rolu təkcə asayişin qorunması ilə məhdudlaşmır. Həssas vəziyyətlərdə onların insanlarla düzgün ünsiyyət qurması, soyuqqanlı davranması, vaxtında edilən müdaxilə bəzən bir və ya bir neçə insanın həyatını xilas edir. Bu kimi hallar polis peşəsinin nə qədər məsuliyyətli və eyni zamanda humanist tərəflərinin olduğunu aydın şəkildə nümayiş etdirir.

Bu prosesdə yalnız dövlət qurumlarının deyil, vətəndaşların da məsuliyyətli davranışı mühüm əhəmiyyət daşıyır. Belə vəziyyətlərdə əsas məqsəd insanların həyatını qorumaq, təhlükəni azaltmaq və yaranmış vəziyyəti mümkün qədər tez nəzarət altına almaqdır.

*F.Məmmədova*

# Polisdən antinarkotik əməliyyatı

## Narkokuriyerlər tutulub



Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı əməliyyatlar keçirilib. Tədbirlər zamanı paytaxt ərazisində narkokuryerlik etməkdə şübhəli bilinən Elnur Məmmədovla tanışı Elmar Balışovdan 14 kiloqram 131 qram tiryək, marixuana, Hikmət Kərimlidən 24 kiloqram 256 qram marixuana, Vüsal İmanovdan 2 kiloqram 300 qram marixuana, eləcə də 500 ədəd psixotrop tərkibli həb, Mövlud Əliyevdən 7 kiloqram 527 qram marixuana, həmçinin tiryək, Sənani Süleymanovdan isə 5 kiloqram 815 qram marixuana və tiryək aşkarlanıb.

Keçirilən əməliyyatlar nəticəsində ümumilikdə 54 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Saxlanılan şəxslər ifadələrində narkotikləri sosial şəbəkələrdə tanış olduqları, şəxsiyyətləri istintaqla araşdırılan İran vətəndaşları vasitəsilə əldə etdiklərini və paytaxt ərazisində dövriyyəsini təşkil etmək məqsədilə müxtəlif ünvanlara çatdırmağı planlaşdırdıqlarını bildiriblər.

Faktlarla bağlı cinayət işi başlanılıb. Saxlanılan şəxslərin hər biri barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Moped oğruları

## Bu əmələ görə üç nəfər saxlanılıb

Nəsimi rayonu ərazisində bir nəfərə məxsus 1400 manat dəyərində "Tufan" markalı moped oğurlanıb.

Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 32 yaşlı K.Qaçayev müəyyən edilərək saxlanılıb. Araşdırma zamanı məlum olub ki, saxlanılan şəxs mopedi oğurlayaraq evinə aparıb. Daha sonra alqı-satqı saytlarından birinə elan yerləşdirərək mopedi satıb.

Rayon ərazisində 1500 manat dəyərində digər bir mopedi oğurlamaqda şübhəli bilinən S.İbrahimov və N.Əhədov da polis əməkdaşları tərəfindən saxlanılıblar.

Hər bir fakt üzrə araşdırma aparılır.

# Gecənin qaranlığı cinayətləri gizlətmir

## Mağazalardan oğurluq edəni polis ifşa edib

Suraxanı rayonu ərazisində gecə saatlarında naməlum şəxs uşaq geyim mağazalarının birinə gizlicə daxil olaraq kassadan 4200 manat pul oğurlayıb. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 29 yaşlı V.İsmayılov müəyyən edilərək saxlanılıb. Araşdırma zamanı onun Suraxanı və Sabunçu rayonlarında daha üç mağazadan oğurluqlar edərək zərərçəkənlərə ümumilikdə 5000 manata yaxın maddi ziyan vurduğu məlum olub.

# Keçmiş məhkumun köhnə şakəri

## O, beş avtomobili qarət etdiyinə görə saxlanılıb

Nərimanov rayonunda zərərçəkənlərə məxsus 4 avtomobilə müdaxilə edilərək onlara ziyan vurulub, nəqliyyat vasitələrində olan müxtəlif məbləğlərdə pul vəsaiti, eləcə də mobil telefonlar oğurlanıb.

Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə bu əməlləri törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş Q.Kərimov müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla onun analoji cinayəti Nəsimi rayonu, H.Seyidzadə küçəsində də törətdiyi məlum olub. Həmin ünvanda Q.Kərimovun "KIA" markalı avtomobildən oğurladığı mobil telefonu satdığı, pul vəsaitini isə xərclədiyi müəyyən edilib.

Faktlar üzrə araşdırmalar davam etdirilir.

# Qızıl "ovçuları"

## Əməlləri azadlıqları bahasına başa gələcək

Sabunçu rayonu, Maştağa qəsəbəsi ərazisində sakinlərdən birinin evindən oğurluq edilib.

Sabunçu RPİ 14-cü Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən şəxslər – N.Abbasov, O.Abbasov, F.Mövsümov və N.Vəliyev müəyyən edilərək saxlanılıblar.

Onların daxil olduqları evdən 8000 manat dəyərində qızıl-zinət əşyaları və mobil telefon oğurladıqları müəyyən edilib.

Araşdırma aparılır.

# Elektron cihazların təqdim etdiyi dəlillər

## Rəqəmsal izlər cinayətləri necə ifşa edir?

**Bir cinayət baş verir. Heç bir şahid yoxdur, kamera görüntüsü də həmçinin. Hadisəni görən, eşidən, xəbər verən də olmayıb. İlk baxışdan bu işin açılması mümkünsüz görünür. Amma çox keçməmiş polis şübhəlini müəyyən edir. Bu artıq təsadüf deyil, müasir dövrün reallığıdır. Çünki bu gün cinayətlərin açılmasında ən böyük rol oynayan amillərdən biri görünməyən, amma hər yerdə mövcud olan rəqəmsal izlərdir.**

Rəqəmsal kriminalistika son illərdə polis və digər hüquq-mühafizə orqanlarının ən güclü alətlərindən birinə çevrilib. İnsanlar fərqinə varmadan gündəlik həyatlarında saysız-hesabsız məlumat yaradırlar. Bu məlumatlar telefonlarda, planşetlərdə, kompüterlərdə və internet sistemlərində saxlanılır. Hər bir klik, hər bir zəng, hər bir mesaj – hamısı gələcəkdə bir sübuta çevrilə bilər. Bu baxımdan müasir insan özündən sonra təkcə fiziki izlər deyil, həm də geniş rəqəmsal "kölgə" buraxır.

Mütəxəssislər bildirir ki, smartfonlar artıq sadəcə ünsiyyət vasitəsi deyil, onlar sahibinin həyatının tam bir arxividir. Gün ərzində gedilən məkanlar, istifadə olunan tətbiqlər, yazılan mesajlar və hətta axtarış sistemlərində yazılan sözlər belə yadda qalır. Bu məlumatlar xüsusi proqramlar vasitəsilə aşkarlanaraq analiz edilir və hadisələrin gedişatını öyrənməyə kömək edir.

### Elektron izlər yox olmur

Xüsusilə diqqət çəkən məqamlardan biri silinmiş məlumatların bərpasıdır. Bir çox insan hesab edir ki, telefonu təmizləməklə və ya mesajları silməklə izlərini yox edir. Lakin rəqəmsal ekspertlər bu fikrin yanlış olduğunu vurğulayır. Çünki məlumatlar əksər hallarda cihazdan tam silinmir, sadəcə istifadəçi üçün görünməz olur. Xüsusi proqram təminatı vasitəsilə həmin məlumatlar yenidən üzə çıxarıla bilər. Bu isə o deməkdir ki, keçmişdə atılan bir addım illər sonra belə sübut kimi ortaya çıxarıla bilər.

### Yalançının şahidi

Rəqəmsal izlərin ən güclü növlərindən biri də geolokasiya məlumatlarıdır. Müasir telefonlar sahibinin hərəkətlərini demək olar ki, saniyə dəqiqliyi ilə qeydə alır. GPS sistemi, mobil operator siqnalları və Wi-Fi bağlantıları vasitəsilə insanın harada olduğu, hansı marşrutla hərəkət etdiyi müəyyənləşdirilir. Bu məlumatlar cinayətlərin araşdırılmasında həlledici rol oynayır. Şübhəli şəxs hadisə yerində olmadığını iddia etsə belə, onun elektron cihazı tam əksini göstərə bilər. Başqa sözlə, "yalançının şahidi yanında olar" deyimi rəqəmsal dövrdə yeni məna qazanır.

Mütəxəssislər rəqəmsal kriminalistikanı bir növ "rəqəmlərlə danışan hekayə" kimi xarakterizə edirlər. Çünki burada hər bir məlumat parçası bir ipucu rolunu oynayır. Zaman ardıcıllığı, cihaz fəaliyyəti və istifadəçi davranışı bir araya gətirilərək hadisənin tam mənzərəsi qurulur. Bu proses bir pazlın tamamlanmasına bənzəyir – ilkin baxışda dağınıq görünən məlumatlar sonda bütöv və məntiqli mənzərə formalaşdırır.

### Texnologiyadan səmərəli istifadə

Texnologiyanın inkişafı cinayətkarların işini çətinləşdirdiyi kimi, polis işini də daha mürəkkəb, lakin daha effektiv edib. Artıq hüquq-mühafizə orqanları yalnız küçələrdə patrul xidməti aparmır, eyni zamanda rəqəmsal mühitdə də fəaliyyət göstərirlər. Sosial şəbəkələr, internet platformaları və müxtəlif tətbiqlər də araşdırmanın bir hissəsinə çevrilib. Cinayətkar nə qədər ehtiyatlı davranmağa çalışsa da, çox vaxt özü də bilmədən iz buraxır.

Müasir dövrdə texnologiya həm təhlükə, həm də təhlükəsizlik vasitəsidir. O, bir tərəfdən yeni cinayət üsulları




yaradır, digər tərəfdən isə bu cinayətlərin qarşısını almaq üçün güclü imkanlar təqdim edir. Rəqəmsal kriminalistika isə bu iki tərəf arasında balans yaradan əsas mexanizmlərdən birinə çevrilib.

Bu gün heç bir hərəkət tam izsiz qalmır. Telefonlar, kompüterlər və digər rəqəmsal vasitələr sanki səssiz şahidlərə çevrilir. Məhz bu səssiz şahidlər bəzən ən güclü sübut rolunu oynayaraq həqiqətin üzə çıxmasına kömək edir.

Bir sözlə, müasir texnologiya dövründə həqiqət gizlənə bilər, lakin tam yox ola bilməz. Onu üzə çıxarmaq üçün sadəcə doğru alətlərə və düzgün yanaşmaya ehtiyac var.

*Aytən Tahirova*

# Bunları etmək bəzi ölkələrdə qadağandır

## Fərqli dövlətlərdə tətbiq olunan qeyri-adi qaydalar

Dünya ölkələrinin hüquq sistemləri yalnız ağır cinayətlərlə mübarizə aparmaq üçün deyil, həm də cəmiyyətin gündəlik həyatını tənzimləyən müxtəlif və bəzən olduqca maraqlı qanunlarla zəngindir. Bu qanunların bəziləri ilk baxışdan qeyri-adi görünsə də, onların hər biri konkret ictimai ehtiyacdan doğur və təhlükəsizlik, intizam, eləcə də qarşılıqlı hörmət prinsiplərinə xidmət edir. Polis orqanları isə bu qaydaların icrasını təmin edərək ictimai asayişin qorunmasında mühüm rol oynayır.



### Sinqapurda saqqız qadağası

Sinqapur dünyada ən intizamlı və təmiz şəhər-dövlətlərdən biri kimi tanınır. 1990-cı illərdə küçələrdə və ictimai nəqliyyatda saqqız tullantılarının yaratdığı problemlər səbəbindən hökumət onun satışını və idxalını qadağan etdi. Hazırda polis bu qanunun icrasına ciddi nəzarət edir. Yalnız tibbi məqsədlər üçün müəyyən saqqız növlərinə icazə verilir. Bu qərar şəhərin təmizliyinin qorunmasına mühüm töhfə verib.

### Sərxoş halda velosiped sürmək

Yaponiya qanunvericiliyinə görə, sərxoş halda velosiped idarə etmək ciddi hüquq pozuntusudur. Bu qayda avtomobil sürücüləri ilə yanaşı velosipedçilərə də şamil olunur. Belə hallarda şəxs cərimə və ya həbs cəzası ilə üzləşə bilər. Polis əməkdaşları xüsusilə gecə saatlarında bu qaydaya ciddi nəzarət edirlər. Məqsəd yol hərəkəti təhlükəsizliyini yüksək səviyyədə təmin etməkdir.

### Almaniyada magistral yolda yanacağın bitməsi

Almaniya ərazisində yerləşən yüksək sürətli magistrallarda avtomobilin yanacağının bitməsi sürücünün səhlənkarlığı kimi qiymətləndirilir. Belə hallar inzibati xəta hesab olunur və cərimə ilə nəticələnir. Polis bu vəziyyətləri potensial təhlükə kimi dəyərləndirir, çünki yüksək sürətli yolda qəfil dayanma ciddi yol-nəqliyyat hadisələrinə səbəb ola bilər.

### BƏƏ-də ictimai davranış qaydaları

Birləşmiş Ərəb Əmirlikləri ərazisində ictimai davranışla bağlı qanunlar olduqca sərtdir. Küçədə aqressiv hərəkətlər etmək, başqalarını təhqir etmək və ya nalayiq ifadələr işlətmək hüquqi məsuliyyət yaradır. Bu qaydalar sosial şəbəkələrdə də tətbiq oluna bilər. Polis həm real mühitdə, həm də rəqəmsal platformalarda bu qaydaların icrasına nəzarət edir.

### Fransada sürücülər üçün alkoqol test cihazı tələbi

Fransa qanunvericiliyinə görə, sürücülər avtomobildə alkoqol test cihazı saxlamalıdır. Bu cihaz sürücüyə öz vəziyyətini yoxlamağa imkan verir və sərxoş halda sükan arxasına keçmənin qarşısını almağa xidmət edir. Polis yoxlamalar zamanı bu tələbə riayət olunmasına nəzarət edir. Bu, profilaktik təhlükəsizlik tədbirlərindən biri hesab olunur.

### Avstraliyada sərt cəzalar

Avstraliyanın bəzi ştatlarında qəsdən manevrlər edərək avtoxuliqanlıq hərəkətlərinə yol vermək ciddi qayda pozuntusu sayılır. Bu halda sürücünün avtomobili polis tərəfindən hətta müsadirə belə edilə bilər. Bu qanunun məqsədi küçə yarışlarının və təhlükəli sürücülük davranışlarının qarşısını almaqdır.

Müxtəlif ölkələrdə tətbiq olunan bu qanunlar göstərir ki, hüquq sistemi yalnız cinayətkarlıqla mübarizə vasitəsi deyil, həm də cəmiyyətin mədəniyyətini və həyat tərzini qoruyan mühüm mexanizmdir. Polis orqanları bu qaydaların icrasını təmin etməklə ictimai nizam-intizamın qorunmasına töhfə verirlər. Bəzən qeyri-adi görünən bu qanunlar əslində konkret problemlərin həlli üçün qəbul olunmuş və zamanla öz effektivliyini sübut etmiş qaydalardır.

*Aytən Tahirova*

# Banqkokda tarixi qələbə

## DİN İdman Cəmiyyətinin yetirməsi yenə çempiondur

Aprelin 7–12-si tarixlərində Tailand Krallığının Banqkok şəhərində kikboksinq üzrə Dünya Kuboku keçirilib. Yarışda DİN İdman Cəmiyyətinin yetirməsi Elvin Məmmədov növbəti uğura imza atıb.



"Low Kick" növü üzrə 60 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Qazaxıstan və Özbəkistan təmsilçilərini üstələyərək dünya kubokunun qalibi olub. Bu qələbə ilə Elvin Məmmədov karyerasında 4-cü dəfə Dünya Kubokunun sahibi adını qazanıb.

Qeyd edək ki, Elvin Məmmədov buna qədər böyüklər arasında ikiqat dünya və ikiqat Avropa çempionu olub. O, ötən il isə "İlin ən yaxşı idmançısı" seçilmişdi.

İdmançının şəxsi məşqçisi, DİN İdman Cəmiyyətinin şöbə rəisi polis polkovniki Eduard Məmmədov bildirib ki, bu mötəbər yarışda qazanılan qələbə təkcə Elvinin deyil, bütövlükdə Azərbaycan kikboksinqinin adına yazılan böyük uğurdur: "Elvin hər dəfə rinqə çıxanda bayrağımızı ucaldır. Bu çəki dərəcəsində 4-cü dəfə Dünya Kubokunu qazanmaq asan məsələ deyildi. Bu, illərin zəhməti və idman zallarında gərgin məşqlərin nəticəsidir".

# Veteran cüdoçuların çempionatı keçirilib

## Təmsilçilərimiz yüksək nəticə ilə fərqləniblər






Aprelin 20-də Abşeron Olimpiya İdman Kompleksində veteran cüdoçular arasında ölkə çempionatı keçirilib. Yarışda 36 komandanı təmsil edən 103 idmançı tatami üzərinə çıxıb.

Gərgin mübarizə şəraitində keçən turnirdə DİN İdman Cəmiyyəti uğurlu nəticə göstərərək 2 qızıl, 5 gümüş və 2 bürünc medal qazanıb. Bu nəticə komandanın ümumi hesabda üçüncü pillədə qərarlaşmasına imkan verib.

Çempionatda polis əməkdaşlarının çıxışı xüsusi diqqət çəkib. Qazanılan 2 qızıl, 3 gümüş medal məhz onların aktivinə yazılıb.

Belə ki, Əlahiddə Çevik Polis Alayının Patrul Bölüyünün komandiri polis polkovnik-leytenantı Hikmət Cəbiyev və DİN İdman Cəmiyyətinin İdmanın təşkili bölməsinin inspektoru polis leytenantı Azər Fətullayev öz çəki dərəcələrində birinci yerə layiq görülüblər.

Kəlbəcər Rayon Polis Şöbəsinin şəxsi heyətlə iş üzrə rəis köməkçisi polis polkovnik-leytenantı Əyyub Hüseynov və A.Heydərov adına Sıravi və kiçik rəis heyəti hazırlayan Məktəbin müəllimi polis polkovnik-leytenantı Natiq Pircanov ikinci yerlə kifayətləniblər. Eyni nəticəni Əlahiddə Çevik Polis Alayının Patrul Bölüyünün manqa komandiri polis baş serjantı Araz Mehralıyev də göstərib.

Qeyd edək ki, yarışı idarə edən hakimlər arasında Azərbaycan Cüdo Federasiyasının birinci dərəcəli hakimi, polis mayoru Ayaz Abbasov da yer alıb.

Sonda qaliblərə medal və diplomlar təqdim olunub.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik